

# Mehriban xanım Əliyeva

## dünyaya müasir Azərbaycan qadınının qürur doğuran obrazını təqdim edir

*Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun, Azərbaycan Mədəniyyət Fondunun, Azərbaycan Gimnastika Federasiyasının prezidenti, Yeni Azərbaycan Partiyası sədrinin birinci müavini, ICESCO-nun xoşməramlı səfiri...*

Mehriban xanım Əliyevanın ictimai, siyasi, mədəni, humanitar və digər sferaları özündə əks etdirən titanik fəaliyyətinin heç də tam siyahısı olmayan, hər biri mənsub olduğu xalqa, vətəndaşı olduğu ölkəyə dərin sevgi, məhəbbət duyğuları ilə yoğrulmuş yüksək məsuliyyət tələb edən yuxarıda sadaladığımız titullarla təqdimatı bu fenomenal şəxsiyyətin zəngin həyat yolu barədə son dərəcə aydın təsəvvür yaradır. Bu vəzifələrin hər birinin icrası prosesində Vətən, xalq sevgisi daim Mehriban xanımın fəaliyyətinin əsasında dayanır. Mehriban xanım Əliyevanın özündə müxtəlif çağırışları ehtiva edən xalqa müraciətlərini "*Dərin hörmət və sevgilərlə, Sizin MEHRİBAN*" ifadəsi ilə tamamlaması, eyni zamanda xalqla birliyin, həmrəyliyin, xalqın Mehriban xanım Əliyevaya bitib-tükənməyən sevgisinin göstəricisidir. Mehriban xanım Əliyevanın aşağıdakı çağırışını heç bir mübaliğəyə yol vermədən bu vətənpərvər, qəlbi daim Vətən eşqi, xalq sevgisi ilə döyünən geniş erudisiyaya malik şəxsiyyətin həyat kredosu hesab etmək olar: "*Gündəlik fəaliyyətimizdə insansevərlik, mərhəmət, qarşılıqlı hörmət, mehribanlıq unudulmamalıdır. Əksinə, məhz bu mənəvi dəyərləri uca tutaraq ən yüksək qələbələr əldə etmək, ən böyük zirvələrə qalxmaq olar*".

**(davamı 3-cü səhifədə)**

# Mehriban xanım Əliyeva

## dünyaya müasir Azərbaycan qadınının qürur doğuran obrazını təqdim edir



(əvvəli 1-ci səhifədə)

Bu təqdimatın hər hansı bir mübaliğədən tamamilə kənar olmasına əmin olmaq üçün Mehriban xanım Əliyevanın təkcə Heydər Əliyev Fondunun prezidenti kimi gördüyü nəhəng işlərin xronologiyasına diqqət yetirmək kifayətdir. Qurumun hansı məqsədlə yaradıldığını nəzərə alsaq əminliklə söyləyə bilərik ki, Mehriban xanım Əliyevanın fəaliyyəti yalnız müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, ulu öndər Heydər Əliyevin zəngin irsinin təbliği ilə məhdudlaşmır. Onun Azərbaycan təhsilinin, səhiyyəsinin, mədəniyyətinin inkişafına xidmət edən layihələri, tariximizin, milli-mənəvi dəyərlərimizin təbliğinə yönələn xidmətləri ölçüyəgəlməzdir desək, şübhəsiz, yanılmarıq. 2017-ci il fevralın 21-də Prezident İlham Əliyevin Sərəncamı ilə Azərbaycanın Birinci vitse-prezidenti təyin edilən Mehriban xanım Əliyevanın Təhlükəsizlik Şurasının iclasında təqdimatında dövlətimizin başçısı bu qərarın qəbulunu şərtləndirən amilləri belə xarakterizə etmişdi: "2004-cü ildən bu günə qədər Mehriban Əliyeva ulu öndərin adını daşıyan Heydər Əliyev Fondunun prezidentidir. Heydər Əliyev Fondu onun rəhbərliyi ilə nəinki Azərbaycanın, hesab edirəm ki, regionun ən böyük və nüfuzlu ictimai təşkilatına çevrilmişdir". Cənab İlham Əliyev sözügedən təqdimat zamanı onu da vurğulamışdı ki, Heydər Əliyev Fondunun çoxşaxəli fəaliyyəti Azərbaycan xalqı tərəfindən yüksək qiymətləndirilir.

Mehriban xanımın təşəbbüsü olan "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək", "Məktəbəqədər təhsil müəssisələrinin inkişafı" və digər proqramlar təhsilin inkişafında mühüm rol oynayır. 2005-ci ildən icrasına başlanılan "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı çərçivəsində 100 mindən çox şagirdin təhsil aldığı 500-dən çox məktəb binası inşa olunub və yenidən qurulub. "Uşaq evləri və internat məktəblərinin inkişafı" proqramı çərçivəsində isə 40-dan çox uşaq müəssisəsi əsaslı təmir edilib. Səhiyyə sahəsinə gəlincə, mübaliğəsiz deyə bilərik ki, Mehriban Əliyevanın təşəbbüsü ilə reallaşdırılan "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Tibb müəssisələrinin yenidən qurulması və inşası" kimi bənzərsiz layihələr, bir çox xeyriyyə aksiyaları xalqımız tərəfindən böyük rəğbətlə, Heydər Əliyev Fondunun prezidentinə sonsuz minnətdarlıq hissi ilə qarşılanır. Bu layihələr çərçivəsində Bakıda müasir Talassemiya Mərkəzinin, Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzinin, Xüsusi qayğıya ehtiyacı olan uşaqlar üçün Reabilitasiya Mərkəzinin, Psixonevroloji Uşaq Mərkəzinin və digər səhiyyə ocaqlarının inşa olunması və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilməsi xüsusi vurğulanmalıdır.

Heydər Əliyev Fondunun mədəniyyətlə, incəsənətlə bağlı layihələri mənəvi, tarixi, mədəni irsimizin qorunması işində əvəzolunmaz rol oynayır. Milli sərvətimiz olan muğam sənətinin yenidən inkişafı və beynəlxalq arenaya çıxarılması məhz Heydər Əliyev Fondunun və bu qurumun prezidenti Mehriban Əliyevanın şəxsi təşəbbüsü nəticəsində mümkün oldu. Azərbaycanda keçirilən muğam müsabiqələri artıq həyatımızın ayrılmaz hissəsinə çevrilib. Bu, sadəcə olaraq sənət növü deyil, tükənməz mədəni sərvətimizin beynəlxalq səviyyədə təqdimatıdır. Məlum olduğu kimi, gənc nəslin tərbiyə olunmasında milli-mənəvi dəyərlər, ənənələr xüsusi rol oynayır. Bu baxımdan Heydər Əliyev Fondunun belə təşəbbüsləri çox böyük qlobal və ictimai məna daşıyır. Eyni zamanda dünya miqyasında muğamın məhz Azərbaycan musiqi sənəti kimi təqdim olunmasında Heydər Əliyev Fondunun misilsiz rolu olub. Fondun təşəbbüsü və dəstəyi ilə Azərbaycanı dünyada tanıtmaq üçün müxtəlif təqdimatlar, sərgilər, tədbirlər keçirilir.

Şübhəsiz, Mehriban xanım Əliyevanın çoxşaxəli və uğurlu fəaliyyəti ölkə Prezidentinin yuxarıda qeyd etdiyimiz qərarında əsas rol oynadı. Cənab İlham Əliyev Təhlükəsizlik Şurasının iclasında Onu Birinci vitse-prezident kimi təqdim edərkən bu mühüm məqamı da xüsusi qeyd etdi ki, Mehriban xanım Əliyeva çox peşəkar, bilikli, təcrübəli, prinsipial, çox xeyirxah bir insandır. Təsadüfi deyil ki, Azərbaycan xalqı ona böyük rəğbət və sevgi ilə yanaşır.

Mehriban xanım Əliyeva isə öz növbəsində "Sizin dövlətçilik ideyalarınız, vətənpərvərliyiniz, Azərbaycan dövlətinin maraqlarını sədaqətlə, iradə ilə, cəsarətlə qorumağınız, insanlarla, Azərbaycan xalqı ilə birliyiniz mənim və mənimlə çalışan bütün insanlar üçün bir nümunə idi. Bizim fəaliyyətimizi istiqamətləndirən bir nümunə idi. Biz fəxr edirik ki, son illər ölkəmizdə baş verən müsbət meyillərdə, dəyişikliklərdə, inkişafda, Azərbaycanın beynəlxalq arenada nüfuzunun artmasında biz öz kiçik də olsa töhfəmizi verməyi bacarmışıq. Mən əminəm ki, vəzifədən asılı olmayaraq, insan öz yolunu, peşəsini seçəndə hər hansı bir işinə, əməyinə vicdanla yanaşmalı, qarşısına aydın məqsədlər qoyub, bu məqsədlərə nail olmağa çalışmalı, söz və işlərində bütöv olmalıdır" fikirləri ilə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə xalqın dəstəyi fonunda Onunla birgə Azərbaycanın bu günü və gələcəyi üçün səylər göstərdiyini və bundan sonra da ölkəmizin, xalqımızın maraqlarını hər şeydən üstün tutacağını, Azərbaycana layiqincə xidmət etməyə çalışacağını ifadə etdi. İnsanlarla ünsiyyətdə olmaq, onları dinləmək və eşitmək, köməyə ehtiyacı olana kömək etmək, mənəvi dəstək vermək Heydər Əliyev Fondunun hər bir əməkdaşının birbaşa vəzifəsidir. Heydər Əliyev Fondu maddi baxımdan çətinlik çəkən, bu baxımdan müalicə oluna bilməyən minlərlə xəstəni əməliyyat və müalicə etdirərək yenidən həyata qayıtmalarına dəstək olub. Mehriban xanım Əliyeva özünün xeyriyyəçilik fəaliyyəti ilə gələcək nəsillərə nəcib bir yolun əsas konturlarını göstərir. Artıq Azərbaycanda ictimai həyatın xüsusi bir bölməsi sayılan xeyriyyəçilik institutu müasir dövrün reallıqları və tələblərinə uyğun olaraq inkişaf edir və genişlənir. Bu gün bu fikri böyük inamla qeyd edirik ki, ölkə vətəndaşlarının üz tutduğu ünvan dövlətimizin başçısı cənab İlham Əliyev və Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevadır. Azərbaycanda hər kəs Mehriban xanım Əliyevanı mərhəmət, xeyirxahlıq və humanizmin simvolu adlandırır.

Bu gün artıq sivil dünyanın təqdir etdiyi danılmaz faktdır ki, Azərbaycanın dövlət siyasətinin əsas istiqamətlərindən biri milli-mənəvi dəyərlərin, tarixi-mədəni irsin qorunması və təbliği ilə yanaşı, beynəlxalq səviyyədə dünya irsinin müdafiəsi və mühafizəsinə dəstək olmaqdır. Bu prosesin önündə gedən Mehriban Əliyeva beynəlxalq sülh, təhlükəsizlik, mədəniyyətlərarası və dinlərarası dialoq mühitinin formalaşması və möhkəmlənməsi, tarixi, mədəni irsin qorunması kimi olduqca vacib məsələlərin həllinə böyük töhfə verir. Azərbaycan tarixinin və mədəni irsinin, ölkəmizlə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində yorulmadan fəaliyyət göstərən Mehriban xanım Əliyevanın səylərinin nəticəsi olaraq İçərişəhər, o cümlədən Şirvanşahlar Sarayı və Qız qalası, Qobustan qayaüstü rəsmləri, Xan Sarayı ilə birgə Şəkinin tarixi mərkəzi UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Həmçinin muğam və aşıq sənətimiz, "Kamança simli musiqi alətinin hazırlanması və ifaçılıq sənəti", "Dədə Qorqud irsi", Azərbaycan kəlağayı sənəti UNESCO-nun Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına salınıb.

Mehriban xanım Əliyevanın yüksək təşkilatçılığı Azərbaycanın ev sahibliyi etdiyi "Eurovision" beynəlxalq mahnı yarışmasının, həmçinin ilk Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunlarının dünyaya səs salan təqdimatından da aydın göründü. İlk Avropa Oyunlarının açılış mərasiminə nəzər salanda bu tədbirin Azərbaycanın dövlət müstəqilliyini yenidən bərpasının 24-cü ilinə təsadüf etməsini ritmik nağara sədaları altında 24-dən sıfıra doğru geriyə sayımın başlamasında öz ifadəsini tapdığını aydın görmək olurdu. Məhz Birinci Avropa Oyunlarının Təşkilat Komitəsinin sədri Mehriban Əliyevanın yüksək təşkilatçılıq qabiliyyəti sayəsində 24 illik yolun, yerləşdiyi coğrafi məkanın Azərbaycana qazandırdığı uğurlar müxtəlif təqdimatlarla ölkə və dünya ictimaiyyətinə çatdırıldı. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva açılış mərasimindəki çıxışında bildirmişdi: "Bu möhtəşəm bayram müstəqil Azərbaycanın, hər bir Azərbaycan vətəndaşının qələbəsidir. Müstəqillik illərində əldə etdiyimiz uğurlar və nailiyyətlər nəticəsində bu gün burada, gözəl Bakıda Avropa Olimpiya Hərəkatının tarixində yeni səhifə yazılır. Bu səhifəni biz yazırıq, Azərbaycan xalqı yazır. Qoy, Tanrı Azərbaycanı hər zaman qorusun!" "Azərbaycan zəngin tarixə, mədəniyyətə və adət-ənənələrə malik olan ölkədir. Multikulturalizm və tolerantlıq, dostluq və qonaqpərvərlik, ahəngdarlıq və həmrəylik Azərbaycanın həyat tərzinin ayrılmaz hissəsidir" söyləyən Mehriban xanım Əliyeva onu da bildirmişdi ki, bu tədbir Azərbaycanın mədəniyyətlərarası dialoqun inkişafında oynadığı rolu nümayiş etdirir: "Müstəqil dövlət kimi biz gəncik. Cəmi 24 yaşımız var. Yaşımız bu axşamkı mərasimdə geriyə saymağın məhz həmin rəqəmdən başlanılması ilə üst-üstə düşür. Son 24 il ərzində ölkəmizdə sürətli inkişaf, irəliləyiş və müasirləşmə müşahidə olunub. Azərbaycanın iqtisadi sabitliyi və davamlı inkişafı bizə bu cür böyük idman tədbirini keçirmək imkanı yaradır". Mehriban xanım bu əminliyi də ifadə etmişdi ki, gələn illərdə Avropa Oyunlarının məşəli nə qədər uzaqlarda alovlansa da, Azərbaycanın və "Bakı-2015"in parlaq ruhunun atəşi orada olacaq.

Bu mötəbər beynəlxalq tədbirlərin möhtəşəm təşkili hətta inkişaf etmiş ölkələri heyran qoydu. Təsadüfü deyil ki, Mehriban xanım idman aləmində və "Ədalətli oyunlar"ın təbliğində nümunəvi nailiyyətləri müqabilində Beynəlxalq Ədalətli Oyunlar Komitəsinin "Xüsusi xidmətlərə görə" medalına layiq görüldü. Həmçinin Azərbaycanda mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, Azərbaycan xalqının mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə və Birinci Avropa Oyunlarının təşkilində böyük xidmətlərinə görə Mehriban Əliyeva Prezident İlham Əliyevin Sərəncamı ilə "Heydər Əliyev" ordeni ilə təltif edildi.

Mehriban xanım Əliyevanın ictimai-siyasi fəaliyyətini, mədəniyyət, təhsil, səhiyyə və digər sahələrdə gördüyü işləri, humanitar missiyasını təkcə ölkəmizin siyasi tarixində ilk dəfə formalaşmış "birinci xanım" kontekstində dəyərləndirmək düzgün olmazdı. Sirr deyil ki, dövlət başçılarının xanımlarının əksəriyyəti daha çox ictimai fəaliyyətə, xeyriyyəçiliyə meyil göstərir. Amma Mehriban xanım Əliyevanın timsalında birinci xanım statusu ənənəvi çərçivəyə sığmır. Azərbaycanın birinci xanımı bir tərəfdən humanizm, mərhəmət, xeyriyyəçilik və qayğıkeşliyi özündə ehtiva edir, digər tərəfdən, Heydər Əliyev Fondunun prezidenti kimi elm, ədəbiyyat, mədəniyyət, təhsil, səhiyyə və digər sahələrdə həyata keçirilən yüzlərlə dəyərli layihənin, mədəni irsimizin qorunması və beynəlxalq arenada təbliği proqramlarının müəllifidir. Mehriban Əliyeva birinci xanım adını şərəflə daşıyır, dünyaya müasir Azərbaycan qadınının qürur doğuran obrazını təqdim edir. Sadəliyi, səmimiliyi, mehribanlığı, nəcibliyi, gözəl aurası ilə ətrafında xoş atmosfer yaradan Mehriban xanım haqqında "Washington Times" qəzeti belə yazmışdır: "Azərbaycanın birinci xanımı: Müsəlman qadınlar üçün nümunəvi qadın obrazıdır".



"Ailə mühitini müəyyənləşdirən amillər çoxdur, amma, yəqin ki, başlıcası bir ümumi dalğaya köklənən fikir və dəyərlərin birliyidir. Bir-birinə son dərəcə diqqətli münasibət çox vacibdir. Əgər ailədə hər bir kəs özünün vacibliyini və əvəzedilməzliyini duyursa, özünün müdafiə olunduğunu və sevildiyini hiss edirsə - bu, yalnız gələcək ailə səadətinin əsası deyil, həm də hər bir məqsədə çatmaq üçün möhkəm bir stimuldur" söyləyən Mehriban xanım qadının ailədəki rolu və ailəyə münasibətini hər zaman önə çəkib. Mehriban xanım Əliyeva "Milli Məclis" jurnalına müsahibəsində "Siz öz humanistliyiniz və əməli fəaliyyətinizlə bütün stereotipləri sındıraraq müasir Azərbaycan qadınının obrazını yaratdınız. Azərbaycan qadınının cəmiyyətdəki rolunu necə dəyərləndirərdiniz" sualını cavabında bildirmişdir ki, qədim və zəngin tariximizin hər bir səhifəsində Azərbaycan qadınının müdrikliyi və qəhrəmanlığının parlaq nümunələri var. Xalqımızın maariflənməsində, iqtisadiyyatımızın qurulmasında, mədəniyyətimizin yüksəlişində və milli-mənəvi dəyərlərimizin qorunub saxlanılmasında qadınlar daim yüksək peşəkarlıq və fədakarlıq nümayiş etdirmişlər. Dünyanın bir çox ölkələrinin qadınlarından əvvəl seçib-seçilmək hüququ əldə etməsi, mədəniyyətin, incəsənətin, elmin müxtəlif sahələrində ilklərə imza atması Azərbaycan qadınının işgüzarlığının və intellektual potensialının aydın təzahürüdür.

Mehriban xanım Əliyevanın gördüyü işlərin dövlətə, xalqa verdiyi səmərə ölçüyəgəlməz dərəcədə dəyərli və əhəmiyyətlidir. Ölkəmizdə Amnistiya aktlarının qəbulunda Mehriban xanım Əliyevanın təşəbbüskar kimi çıxış etməsi də ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanan addımlar sırasındandır. "Hər bir cəmiyyətdə mərhəmət, insanpərvərlik, qayğı kimi hisslər əsas yer tutmalıdır. O cəmiyyətdə ki həm dövlət qurumları, həm vətəndaş cəmiyyəti məhz bu prinsiplər əsasında həm öz həyatını, həm öz fəaliyyətini qurur, demək olar, o cəmiyyət inkişaf etmiş, uğurlu cəmiyyətdir" söyləyən Mehriban xanım Əliyeva humanizmi, xeyirxahlığı hər addımında öndə saxlayır.

Mehriban xanım Əliyevanın Milli Məclisin deputatı kimi fəaliyyət göstərdiyi dövrlərdə də gördüyü işlərin zənginliyi xüsusi diqqət çəkmişdir. Bunun üçün Azərbaycanın birinci xanımının seçildiyi Xəzər rayonunun sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində gördüyü işlərə diqqət yetirmək kifayətdir. O, mütəmadi olaraq seçiciləri ilə görüşlər keçirərək onların qayğıları ilə yaxından tanış olub. Sözü ilə əməli bir olan, verdiyi vədlərə layiqincə əməl edən, mühüm problemlərin həllinə nail olan Mehriban xanım Əliyevanın gördüyü işlər Xəzər rayonunun sakinlərində böyük ruh yüksəkliyi yaratmışdır.

Qeyd etdiyimiz kimi, 2017-ci il fevralın 21-də Mehriban Əliyevanın Birinci vitse-prezident vəzifəsinə təyin edilməsi onun Azərbaycan dövlətçiliyinin inkişafı və möhkəmləndirilməsi naminə zəngin və fədakar fəaliyyətinin, habelə yüksək təşkilatçılıq qabiliyyətinin məntiqi nəticəsi idi. Mehriban Əliyeva "Üzərimə düşən məsuliyyət olduqca böyükdür. Mən Prezidentin etimadını doğrultmalıyam və ən başlıcası isə inamı, ümidi olan insanların etimadını doğrultmalıyam" vədinə sadiq qalaraq dövlətçiliyə layiqincə xidmət edir, üzərinə düşən vəzifənin öhdəsindən uğurla gəlir. O, gündəlik fəaliyyətində mərhəmət, qarşılıqlı hörmət, mehribanlıq meyarlarını əsas götürür, milli-mənəvi dəyərlərimizi daim uca tutur. Birinci vitse-prezident kimi Azərbaycanın iqtisadi, sosial inkişafı və xalqımızın rifahı kimi milli məqsədlərə nail olmaqla bağlı üzərinə nəcib missiya və yeni öhdəliklər götürən Mehriban Əliyevanın fəaliyyətində əhalinin həssas təbəqələrinin problemlərinin həlli xüsusi yer tutur. O, yeni yüksək vəzifədə keçirdiyi ilk müşavirəni qaçqın və məcburi köçkün ailələrin rifahının yaxşılaşdırılmasına həsr etmişdi. Həmin müşavirədən dərhal sonra müvafiq Tədbirlər planı hazırlandı və real işlər başlandı. Qısa müddətdə yüz minlərlə qaçqın və məcburi köçkünün mənzil-məişət şəraiti yaxşılaşdırıldı. Mehriban xanım Əliyeva görülən bu işlərin müvəqqəti xarakter daşıdığını, tezliklə Qarabağ münaqişəsinin öz həllini tapacağına, soydaşlarımızın doğma yurd-yuvalarına qayıdacaqlarına əminliyini ifadə etmişdi. Bu əminlik dövlətimizin başçısı İlham Əliyevin çıxışlarında, keçmiş məcburi köçkünlərlə görüşlərində də ifadə edilirdi. Təbii ki, buna əsas verən tarixi ədalətin və beynəlxalq hüququn Azərbaycanın tərəfində olması idi. 44 günlük İkinci Qarabağ müharibəsi dövründə Mehriban xanım Əliyevanın xalqa müraciətlərində, rəsmi "İnstagram" səhifəsindəki paylaşımlarında yer alan arzu, istəklərə diqqət yetirək. "Azərbaycan dövləti heç vaxt başqasının torpaqlarına iddialı olmayıb, heç zaman insanlığa qarşı cinayət törətməyib. Azərbaycan Ordusu başqa dövlətin torpaqlarına ayaq basmayıb, o, doğma torpağını qoruyur və onun uğrunda döyüşür!" söyləyən Mehriban xanım Əliyeva bu arzunu ifadə etdi ki, Qoy Uca Tanrı hər bir azərbaycanlıya müqəddəs Qarabağ torpağını öpməyi nəsib etsin! 9 noyabr 2020-ci ildə isə rəsmi "İnstagram" səhifəsində tarixi qələbə ilə bağlı paylaşım etdi. Paylaşımda qeyd edildi ki, bu anlarda bütün xalqımız təsvirəgəlməz qürur və sevinc hissləri keçirir: "Şuşa işğaldan azad edilib! Bu münasibətlə bütün həmvətənlərimizə səmimi təbriklərimi çatdırıram! İllər boyu davam etmiş kədər, həsrət, faciəli hadisələrdən sonra tarixi ədalət bərpa olunur! Vətənimizi müdafiə edən və əzəli Azərbaycan torpaqlarını işğaldan azad edən qəhrəmanlar nəslinin bugünkü igidlikləri Azərbaycan tarixinə əbədi daxil olacaq və hər birimizin yaddaşında həmişəlik qalacaq! Qoy bizim bütün uğurlarımızın və nailiyyətlərimizin, bütün qələbələrimizin qarantı olan xalq-Prezident birliyi günbəgün möhkəmlənsin! Bu gün məhz bu birlik Azərbaycanın öz gücünü nümayiş etdirməsinə imkan yaradır! Milli həmrəylik, xalqın etimadı, inamı və dəstəyi sayəsində bizim Prezidentimiz bütün mürəkkəb məsələlərin öhdəsindən uğurla gəlməyi bacarır! Qoy Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Şuşa bizimdir! Qarabağ Azərbaycandır!". Vətən müharibəsinin gedişi dövründə Azərbaycanın haqlı mövqeyinin nümayişi, beynəlxalq hüququn norma və prinsiplərini kobud şəkildə pozan düşmənin dinc sakinləri hədəf alan hücumlarının beynəlxalq ictimaiyyətə çatdırılması istiqamətində əməli addımlar atıldı. Torpaqlarımızın azad olunması uğrunda mübarizəyə siyasi-mənəvi dəstək, xalqımızı milli həmrəyliyə səsləyən, şanlı Ordumuzu Qələbəyə ruhlandıran müraciət və çağırışlar Heydər Əliyev Fondunun və onun prezidenti Mehriban xanım Əliyevanın xidmətləri sırasında xüsusi yer tutur.

COVID-19 pandemiyası dövründə Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dövlətimizin başçısı İlham Əliyevlə birgə vətəndaşların yanında olması, onları narahat edən məsələlərlə yaxından tanış olması, onların qayğıları ilə yaşaması vətəndaş məmnunluğunun artırılmasında əhəmiyyətli rol oynadı. Bu həmrəylik sayəsində hər bir çətinlikdən uğurla çıxan Azərbaycan COVID-19-la mübarizədə də dünyaya bu birliyi nümayiş etdirdi. Mehriban xanım Əliyeva bu çağırışı etdi: "COVID-19 adlı qorxulu hekayənin geridə qalacağı gün gələcək".

Mehriban xanım Əliyevanın çoxşaxəli titanik fəaliyyətinin uğurlarını sadalamaqla bitməz. Ölkəmizin ictimai-siyasi həyatında aparıcı rol oynayan, ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olan Yeni Azərbaycan Partiyasının inkişafında, cəmiyyətdə nüfuzunun artmasında Mehriban xanım Əliyevanın xidmətləri böyükdür. Qeyd edək ki, 2021-ci ildə tarixi Zəfərimizin reallıqları əsasında keçirilən partiyanın VII qurultayında yeni tərkib formalaşdı. Belə ki, partiyanın yeni Nizamnaməsinə uyğun olaraq YAP Sədri cənab İlham Əliyevin Sərəncamı ilə Mehriban xanım Əliyeva Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini təyin edildi. YAP-ın müasir dövrün çağırışlarını özündə əks etdirən yeni Proqramında qarşıya qoyulan hədəflərin yerinə yetirilməsində Mehriban xanım Əliyevanın böyük rolu vardır.

Mehriban Əliyevanın çoxşaxəli fəaliyyəti həm Azərbaycanda, həm də beynəlxalq miqyasda yüksək qiymətləndirilir. Azərbaycanın ən ali dövlət mükafatı olan "Heydər Əliyev" ordeni, həmçinin "Qızıl Ürək" Beynəlxalq Mükafatı, Avropa Olimpiya Komitələrinin Ali ordeni, Fransanın "Şərəf Legionu" ordeni, İtaliyanın "Xidmətlərə görə" Böyük Xaç Kavaleri ordeni, Polşanın "Böyük Komandor Xaçı" ordeni, Rusiyanın "Dostluq" ordeni, UNESCO-nun "Qızıl Motsart" medalı... Bunlar Azərbaycanın Birinci vitse-prezidentinin layiq görüldüyü mükafatların heç də tam siyahısı deyil. Mehriban Əliyeva hesab edir ki, ən böyük mükafatı xalqın ona olan sevgisi, inamı və etimadıdır. Mehriban xanım Əliyeva bildirir ki, illər ötdükcə, qarşımıza yeni ideya və planlar çıxdıqca məqsədlərimiz xaraktercə dəyişir, amma əsas amalımız - Azərbaycan xalqına xidmət etmək amalı dəyişməz olaraq qalır və qalacaqdır.

Artıq Azərbaycan suverenliyimizin tam bərpası ilə yeni dövrə qədəm qoyub. Yeni dövrün yeni hədəflərinə doğru inamla addımlayırıq. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətinin təhlili fonunda belə bir ümumiləşdirmə apara bilərik ki, birinci xanım həyat kitabını bundan sonra daha da möhtəşəm səhifələrlə zənginləşdirəcək. Mehriban xanım Əliyevanın bu fikirlərini bir daha xatırlatmaq istərdik: "Həyatda hər bir kəsin yerini və taleyini tarix müəyyən edir. Odur ki, nə böyük, nə də kiçik rollar olmur. Öz həyat kitabını yazmağa ancaq sənin şəxsi, dərk edilmiş məsuliyyətin imkan verir. Bu kitabda hər bir kəs özünü şəxsi həyatının və dünyanın qurub-yaradıcısı, yaxud dağıdıcısı kimi təcəssüm etdirir. Kimsənsə, elə də olmalısan - bax, budur bizim həyatımız. Ona görə də özgələrin rollarını və obrazlarını gərək öz üzərinə götürməyəsən. Çünki sən də, dünyada yerin də yeganə və bənzərsizdir". Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın "Baku" jurnalına müsahibəsində söylədikləri fikirlər bu günümüzün fonunda gələcəyə daha böyük inamla baxmağa əsas verir. Prezident İlham Əliyev bildirmişdi ki, uğurların sirri, ilk növbədə, ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan siyasi kursun davam etdirilməsindədir: "Zaman göstərdi ki, bu, Azərbaycanı xaos və dağılmaqdan qurtaran yeganə düzgün siyasi kurs oldu. Gəlin, Azərbaycanın müstəqilliyinin ilk illərini xatırlayaq. Ölkədə hərbi-siyasi və mənəvi böhran hökm sürürdü, iqtisadiyyat tamamilə tənəzzülə uğramışdı. Azərbaycan müstəqilliyini itirmək təhlükəsi qarşısında qalmışdı. 1993-cü ildə Heydər Əliyev hakimiyyətə gəldikdən sonra Azərbaycan inkişaf dövrünə qədəm qoydu. Siyasi-demokratik institutların bərpası, bazar iqtisadiyyatı və müasir inkişaf başladı. Bütün bunlar, Azərbaycanın dünyada dinamik inkişaf edən ölkələrdən biri olmasına gətirib çıxardı. Bu gün Azərbaycanda keçirilən siyasi islahatlar azad cəmiyyətin yaranması ilə nəticələndi. Ölkəmizdə vətəndaşların bütün azadlıqları təmin edilib: söz, vicdan, mətbuat və başqa azadlıqlar. Sabit siyasi sistem, səmərəli sosial siyasət, zəngin təbii sərvətlər, müasir infrastruktur, əlverişli coğrafi mövqe, təhsil almış gənclik - bütün bunlar ölkəmizin uğur qazanmasında böyük rolu olan amillərdir. Azərbaycanın birinci xanımı Mehriban Əliyeva isə qeyd etmişdir ki, məqsədimiz və arzumuz inkişaf etmiş, güclü, azad ölkədə yaşamaqdır. Sözsüz ki, bu, çox güclü motivasiyadır. Eyni zamanda beynəlxalq aləmdə müasir Azərbaycanın real və obyektiv imici formalaşıb. Biz öz tarixi köklərimizə, ənənələrimizə bağlıyıq. Bununla belə, dünyaya açığıq. Bizim üçün dözümlülük, tolerantlıq, multikulturalizm təkcə son zamanlar dəbdə olan sözlər deyil. Bu, Azərbaycan xalqının çoxəsrlik həyat tərzi və fəlsəfəsidir. Bu gün ölkəmiz siyasi, mədəni və iqtisadi sahələrdə çox sayda beynəlxalq konfrans, forum və görüşlərin keçirildiyi ölkədir. Bu, qədim ənənələrin müasir meylidir".

Bu gün qürurla hər birimiz tarixi Zəfərimizdən, ərazi bütövlüyümüzün və suverenliyimizin tam bərpa edilməsindən, Qarabağımızın, Şərqi Zəngəzurumuzun dirçəlməsindən bəhs edirik. Dövlət başçısı İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın işğaldan azad edilmiş ərazilərimizə hər bir səfəri tarixi hadisə olmaqla Böyük Qayıdış Proqramının icrasının uğurlu sonluqla başa çatacağına əminlik yaradan addımlarla zəngindir. Bu gün bayramlarımızı, əlamətdar günləri bu torpaqlarda qeyd edirik. Birinci vitse-prezident Mehriban Əliyevanın tapşırığına əsasən, Heydər Əliyev Fondu Qarabağ ərazisində ermənilər tərəfindən dağıdılan, Azərbaycan xalqının milli sərvəti olan dini abidələrin, məscidlərin bərpası üzrə layihəyə başlayıb. Yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması, 32 ildən sonra Şuşada, Cıdır düzündə Heydər Əliyev Fondu tərəfindən təşkil olunan "Xarıbülbül" Musiqi Festivalı, Vaqif Poeziya Günləri Azərbaycan xalqının mənəvi, tarixi, mədəni irsinin təşviqi və qorunması işinə dəyərli töhfələrdir. Azərbaycanın bugünkü reallıqları Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın zəngin ömür yolunun böyük qürur hissi ilə vərəqlənməsində zəngin mənbədir.

Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti, Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavini, ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanı doğum günü münasibətilə təbrik edir, Ona möhkəm cansağlığı, Azərbaycanın davamlı inkişafının, xalqın yüksək rifahının təmin edilməsi istiqamətində atdığı addımlarda, humanist təşəbbüslərinin gerçəkləşdirilməsində uğurlar diləyirik! Yolunuz daim açıq, uğurlarınız bitib-tükənməz olsun, Mehriban xanım!

**Aynur SOFİYEVA,**
**YAP İdarə Heyətinin üzvü,**
**Ailə, Qadın və Uşaq Problemləri üzrə**
**Dövlət Komitəsi sədrinin müavini.**